**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

# M Ə L U M A T  M Ə K T U B U

**Hörmətli həmkarlar!**

Sizi 13-14 noyabr 2025-ci il tarixlərində Sumqayıt Dövlət Universitetində keçiriləcək **"Azərbaycan Respublikasında dövlət quruculuğu prosesi və aktual problemləri"** mövzusunda Respublika elmi konfransında iştirak etməyə dəvət edirik.

Konfransda Azərbaycan Respublikasında dövlət quruculuğu prosesinin tarixi inkişaf mərhələlərinin, müasir idarəetmə mexanizmlərinin, hüquqi, siyasi, sosial-iqtisadi, mədəni və elmi sahələrdə həyata keçirilən islahatların elmi əsaslarla təhlili, dövlətçilik ideologiyasının formalaşmasına təsir göstərən amillərin öyrənilməsi, habelə konfrans iştirakçıları tərəfindən aparılmış elmi-tədqiqat işlərinin nəticələrinin müzakirəsi və bu istiqamətdə geniş fikir mübadiləsinin aparılması nəzərdə tutulur.

**Konfransın bölmələri:**

1. Azərbaycan dövlətçiliyi: tarix, təcrübə və müasir çağırışlar
2. Azərbaycan Respublikasının Konstitusiyası və hüquqi dövlət prinsipləri
3. Hüquqi dövlət və idarəetmədə müasir yanaşmalar
4. Azərbaycan Respublikasında dövlət quruculuğu
5. Müstəqillik dövründə dövlət idarəçiliyi, islahatlar və hüquqi dövlətin formalaşması problemləri
6. İnsan hüquqları və hüquqi dövlət
7. İqtisadiyyatın modernləşdirilməsi, sosial siyasət və dayanıqlı inkişaf strategiyaları
8. Milli təhlükəsizlik, müdafiə siyasəti və beynəlxalq münasibətlərdə Azərbaycanın mövqeyi
9. Elm, təhsil, mədəniyyət və informasiya siyasətinin dövlət quruculuğundakı rolu
10. Qloballaşma dövründə Azərbaycan dövlətçiliyi: çağırışlar, perspektivlər və inkişaf prioritetləri

**Konfransın işçi dilləri:** Azərbaycan, türk, ingilis, rus.

**Konfransın formatı:** əyani və ya onlayn – əlavə olaraq məlumat veriləcəkdir.

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər:**

| | |
|---|---|
| Kağızın ölçüsü | – *A4* |
| Boş sahə | – *hər tərəfdən 2 sm* |

| | |
|---|---|
| Şrift | *– Times New Roman* |
| Şrift ölçüsü | *– 12 pt* |
| Sətirarası interval | *– 1,15 sm* |
| Abzas | *– 1,25 sm* |
| Məqalənin adı | *– ortadan, böyük hərflərlə, qalın şriftlə* |
| Müəllifin adı, soyadı, atasının adı | *– ortadan, qalın şriflə* |
| İş yeri, şəhər, ölkə | *– ortadan, kursivlə* |
| E-poçt ünvanı | *– ortadan, kursivlə* |
| Açar sözlər (5–7 söz) | *– Azərbaycan, ingilis, türk və rus dillərində* |
| Xülasə (60–80 söz) | *– məqalənin yazıldığı dildən başqa iki dildə* |
| Həcmi | *– 5 səhifəyə qədər* |
| Ədəbiyyata istinadlar | *– kvadrat mötərizədə* |
| Ədəbiyyat siyahısı | *–əlifba sırası ilə* |

Konfransın materialları **Plagiat.pl** şirkətinə məxsus **StrikePlagiarism.com** antiplagiat sistemində yoxlanıldıqdan sonra **"SDU.Konfrans materialları"** toplusunda dərc olunaraq, https://www.ssu-conferenceproceedings.edu.az, https://www.sdu.edu.az saytlarında və **eLibrary.ru** məlumat bazasında yerləşdiriləcəkdir (beynəlxalq seriya nömrələri: **İSSN 2708-955X print, İSSN 2709-6033 on-line**).

Materiallar **28 oktyabr 2025-ci il** tarixinədək **konfrans.tarix@sdu.edu.az** elektron poçtuna və ya əyani olaraq elektron daşıyıcılarda və çap olunmuş formada aşağıdakı ünvanda qəbul olunur: *AZ5008. Sumqayıt şəh., 43-cü məhəllə, Bakı küçəsi 1, Sumqayıt Dövlət Universiteti (I tədris korpusu), Tarix və coğrafiya fakültəsi, Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrası (otaq 248).*

*İştirakçılara sertifikat təqdim olunacaqdır.*

**Bir müəllifdən yalnız bir məruzənin tezisi və ya məqaləsi qəbul olunur.**

**Təşkilat komitəsi tezislərin və məqalələrin konfransın proqramına daxil edilməsi hüququnu özündə saxlayır.**

**Məsul katib - prof. Şirxan Səlimov**

**Əlaqə telefonu**: *(+99455) 619 50 71*

***Təşkilat komitəsi***